Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2021-ci il 27 dekabr tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

# «Rezidentlik sertifikatının alınması haqqında Ərizənin» (DTA-01 Forması) doldurulması
# Q A Y D A S I

DTA-01 Ərizə forması rezidentlik sertifikatı almaq istəyən rezident tərəfindən doldurulur və özünün uçotda olduğu vergi orqanına təqdim edilir. Ərizə kağız daşıyıcısında doldurulduqda hər xanada bir simvoldan artıq olmamaqla göy və ya qara rəngli diyircəkli qələmlə aydın oxunaqlı şəkildə doldurulmalıdır.

1.1-ci bənddə ərizənin təqdim edildiyi vergi orqanının adı qeyd olunur. Məsələn:

| | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1.1. | Müraciət edilən vergi orqanının adı | D | Ö | V | L | Ə | T | | V | E | R | G | İ | | X | İ | D | M | Ə | T | İ | N | İ | N | | | | |
| | | M | İ | L | L | İ | | G | Ə | L | İ | R | L | Ə | R | | B | A | Ş | | İ | D | A | R | Ə | S | İ | |

Müraciət edən şəxsin fiziki və ya hüquqi şəxs olmasından asılı olaraq 2.1-ci və 2.2-ci bəndlərdə müvafiq xanada X işarəsi qoyulur, 2.3-cü bənddə isə müraciət edən şəxsin VÖEN-i qeyd olunur. Məsələn:

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2.1. | Fiziki şəxs | | 2.2. | Hüquqi şəxs | X | | | | | |
| 2.3. | VÖEN | 0 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 |

2.4-cü, 2.5-ci və 2.6-cı bəndlər müraciət edən şəxs fiziki şəxs olduqda doldurulur və onun adı, soyadı və atasının adı şəxsiyyətini təsdiq edən sənəddə olduğu kimi qeyd olunur.

Qeyd olunan bəndlər ingilis dilində də doldurula bilər. Məsələn:

| Fiziki şəxs olduqda/Individual | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2.4. | Soyadı/Surname | S | Ə | M | Ə | D | O | V | | | |
| 2.5. | Adı/Name | A | R | İ | F | | | | | | |
| 2.6. | Atasının adı/Patronymic | M | Ə | H | Ə | M | M | Ə | D | | |

2.7-ci bənd müraciət edən şəxs hüquqi şəxs olduqda doldurulur və onun tam adı dövlət reyestrində olduğu kimi qeyd olunur. Qeyd olunan bənd ingilis dilində də doldurula bilər. Məsələn:

| Hüquqi şəxs olduqda/Legal person | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2.7. | Tam adı/Full name | V | Ə | T | Ə | N | | M | M | C | |
| | | | | | | | | | | | |

Ərizənin 3-cü bölməsində müraciət edən şəxsin hüquqi və faktiki ünvanları aşağıdakı nümunəyə uyğun qaydada qeyd olunur:

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 3.1. | poçt indeksi | A | Z | 1 | 0 | 7 | 3 | | | | | | |
| 3.2. | şəhər (rayon) | B | A | K | I | | | | | | | | |
| 3.3. | kənd (qəsəbə) | | | | | | | | | | | | |
| 3.4. | küçə | L | E | V | | L | A | N | D | A | U | | |
| 3.5. | ev № | 1 | 6 | | | | 3.6. | mənzil | 2 | 4 | 3 | | |

Hüquqi ünvanla faktiki ünvan eyni olduğu halda, “Faktiki ünvan” xanası boş saxlanılır. Həm hüquqi, həm də faktiki ünvan qeyd olunduqda, 4.1-ci bənddə müraciət edən şəxslə poçt əlaqəsi üçün hansı ünvandan istifadə ediləcəyi müvafiq xanada X işarəsi qoyulmaqla seçilir ya “Digər” xanasında X işarəsi qeyd olunaraq ünvan bəndi doldurulur. Məsələn:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 4.1. | poçt əlaqəsi üçün ünvan (birini seçin və X işarə edin) | Hüquqi | | Faktiki | | Digər X |
| | AZ1000 BAKI LANDAU EV10 | | | | | |
| | | | | | | |

4.2-4.5-ci bəndlər müvafiq olaraq aşağıdakı kimi doldurulur:

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4.2. | Telefon (1): | 9 | 9 | 4 | 1 | 2 | 4 | 0 | 3 | 8 | 3 | 0 | 0 | | |
| 4.3. | Telefon (2): | 9 | 9 | 4 | 1 | 2 | 4 | 0 | 3 | 8 | 3 | 0 | 0 | | |
| 4.4. | E-mail: | EXAMPLE@EXAMPLE.COM | | | | | | | | | | | | | |

5-ci bölmədə müraciət edən fiziki şəxsin və ya hüquqi şəxsin rəhbərinin (qanuni təmsilçisinin), yaxud ərizə səlahiyyətli nümayəndə tərəfindən doldurulduqda, həmin səlahiyyətli nümayəndənin şəxsiyyətini təsdiq edən sənədin məlumatları qeyd olunur.

5.1-5.3-cü bəndlərdə müvafiq olaraq müraciət edən şəxsin soyadı, adı, atasının adı, 5.4-cü bənddə sənədin seriyası, 5.5-ci bənddə nömrəsi, 5.6-cı bənddə sənədi vermiş orqanın adı, 5.7-ci bənddə sənədin verilmə tarixi, 5.8-ci bənddə sənəd sahibinin FİN nömrəsi qeyd olunur. 5.8-ci bənd doldurularkən Azərbaycan vətəndaşları şəxsiyyət vəsiqəsindəki, xarici ölkə vətəndaşı olan şəxslər isə onlara Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsində göstərilmiş FİN nömrəsini qeyd edirlər.

| Səlahiyyətli nümayəndənin: | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 5.1. | Soyadı | M | İ | R | Z | Ə | Y | E | V | |
| 5.2. | Adı | V | A | Q | İ | F | | | | |
| 5.3. | Atasının adı | S | A | H | İ | B | | | | |

| Şəxsiyyəti təsdiq edən sənədin | | | |
|---|---|---|---|
| 5.4. Seriyası | A Z E | 5.5. Nömrəsi | 1 2 3 4 5 6 7 8 9 0 |
| 5.6. Sənədi vermiş orqanın adı | N Ə S İ M İ   R P İ | | |
| 5.7. Sənədin verilmə tarixi | 0 1 0 1 2 0 1 0 | 5.8. Sənədə əsasən FIN | A B C D E F G |

Hüquqi şəxsin xarici ölkə vətəndaşı olan rəhbərinin (qanuni təmsilçisinin) və ya müraciət edən şəxsin səlahiyyətli nümayəndəsinin şəxsiyyətini təsdiq edən sənəddə Azərbaycan Respublikasında tanınan FİN nömrəsi olmadığı halda, 5.8-ci bənd doldurulmur.

Ərizə formasının 6-cı bölməsində rezidentlik sertifikatının təqdim ediləcəyi xarici dövlət və həmin dövlətin müvafiq şəxsi barədə məlumatlar qeyd olunur. 6.1-ci bənddə xarici dövlətin adı qeyd olunur, sertifikatın təqdim ediləcəyi şəxsin fiziki və ya hüquqi şəxs olmağından asılı olaraq, 6.3-cü və 6.4-cü bənddə müvafiq xanada X işarəsi qoyulur. Xarici dövlətdə sertifikatın təqdim ediləcəyi şəxsin VÖEN-i məlumdursa, 6.5-ci bənddə əks etdirilir. Məsələn:

| | | | | |
|---|---|---|---|---|
| 6.1. | Xarici dövlətin tam adı | T Ü R K İ Y Ə   R E S P U B L İ K A S I | | |
| 6.2. | Xarici dövlətdə rezidentlik sertifikatının təqdim ediləcəyi şəxs | | | |
| 6.3. | Fiziki şəxs | | 6.4. Hüquqi şəxs | X |
| 6.5. | VÖEN | 5 6 G H 9 0 6 | | |

Xarici dövlətdə sertifikatın təqdim ediləcəyi şəxsin VÖEN-i yoxdursa, yaxud məlum deyildirsə, həmin bənd doldurulmur. Xarici dövlətdə sertifikatın təqdim ediləcəyi şəxs fiziki şəxsdirsə 6.6-ci və 6.7-ci bəndlərdə müvafiq olaraq, adı və soyadı, hüquqi şəxs olduqda isə 6.8-ci bənddə tam adı əks etdirilir. Qeyd olunan bəndlər ingilis dilində doldurula bilər. Məsələn:

| Fiziki şəxs olduqda | | |
|---|---|---|
| 6.6. | Soyadı | S M İ T H |
| 6.7. | Adı | A D A M |

| Hüquqi şəxs olduqda | | |
|---|---|---|
| 6.8. | Tam adı | G A M M A   T R A D İ N G   L L C |

Ərizənin 7.1-ci bəndində rezidentlik sertifikatının istənilməsinin səbəbi ətraflı şəkildə izah edilməlidir. 7.1.1-ci bənddə iş və ya xidmətin növü və ya adı göstərilir. 7.1.2-ci bənddə daimi nümayəndəliyin olub-olmaması, 7.1.2.1-ci bənddə sertifikatın təqdim ediləcəyi dövlətdə daimi nümayəndəlik olduğu təqdirdə, daimi nümayəndəliyin adı, 7.1.2.2-ci bənddə VÖEN göstərilir. Məsələn:

| | |
|---|---|
| 7.1. | Sertifikatın istənilməsinin məqsədinin ətraflı izahı |
| 7.1.1. | İş və ya xidmətin adı |
| | Daşıma xidməti |

| | | | | |
|---|---|---|---|---|
| 7.1.2. | Sertifikatın təqdim ediləcəyi ölkədə daimi nümayəndəlik və ya daimi baza vasitəsilə ilə hər hansı fəaliyyət göstərirsinizmi? | Bəli | Xeyr | x |
| 7.1.2.1. | Daimi nümayəndəliyin adı | | | |
| 7.1.2.2. | VÖEN | | | |

Müraciət edən şəxsin xarici dövlətdə əldə edəcəyi gəlirin ödənilməsinə əsas verən müqavilə olduğu təqdirdə, 7.3-cü bənddə onun tarixi, 7.4-cü bənddə isə nömrəsi aşağıdakı misalda göstərilmiş qaydada əks olunur:

| | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 7.3. | Tarixi | 2 | 9 | 0 | 8 | 2 | 0 | 2 | 1 | 7.4. | Nömrəsi | 8 | 8 | s | | | | |

Əgər xarici dövlətdən əldə ediləcək gəlirin (mənfəətin) məbləği məlumdursa, 7.5.1-ci və 7.5.2-ci yarımbəndlərdə müvafiq olaraq, gəlirin *(mənfəətin)* valyutası və xarici valyuta ilə məbləği, 7.5.3-cü yarımbənddə isə gəlirin *(mənfəətin)* məbləği AZN-lə göstərilir. Həmçinin gəlirin *(mənfəətin)* məbləği AZN-lə göstərildikdə, 7.5.1-ci və 7.5.2-ci yarımbəndlər doldurulmur. Məsələn:

| | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 7.5. | Əldə ediləcək gəlir ***(mənfəət)*** | | | | | | | | | | | | | | | | | |
| 7.5.1. | Xarici valyutanın kodu | U | S | D | 7.5.2. Məbləğ | 1 | 0 | 0 | 0 | | | | | | | | | |
| 7.5.3. Məbləğ AZN-lə | | 1 | 7 | 0 | 0 | | | | | | | | | | | | | |

7.3-cü və 7.4-cü bəndlərdə və 7.5.1-7.5.3-cü yarımbəndlərdə əks olunmalı olan məlumatlardan hər hansı məlum deyildirsə, həmin bənd doldurulmur.

Sertifikat hər hansı vergi ili üçün istənilirsə 7.6.1-ci yarımbəndin "Vergi ili" xanası doldurulur. Məsələn:

| | | | | |
|---|---|---|---|---|
| 7.6.1. Vergi ili | 2 | 0 | 2 | 1 |

Digər Dövlətin rezidentliyin təsdiqi ilə əlaqədar xüsusi formanın mövcud olub-olmamasından asılı olaraq 7.7.1-ci və ya 7.7.2-ci yarımbəndlərin xanalarından biri "X" işarəsi ilə qeyd olunur.

| | | | |
|---|---|---|---|
| 7.7. Digər Dövlətin rezidentliyin təsdiqi ilə bağlı xüsusi formasının mövcudluğu | | | |
| 7.7.1. Mövcuddur | X | 7.7.2. Mövcud deyil | |

Əgər digər dövlətin xüsusi forması mövcuddursa müraciət edən şəxs həmin formanı və onun notariat qaydasında təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini öz müraciətinə əlavə etməlidir.

Ərizəyə əlavə sənədlər varsa, əlavə olunan vərəqlərin sayı aşağıdakı misalda göstərilmiş qaydada qeyd olunur. Ərizə kağız daşıyıcısında doldurularaq, təqdim edildiyi halda ərizənin doldurulma tarixi müvafiq hissədə əks etdirilir, ərizə imzalanır və müraciət edən şəxsin möhürü olduğu halda vurulur. Məsələn:

vərəqlərin sayı

Əlavə olunan sənədlər

| | | |
|---|---|---|
| 0 | 1 | 2 |

M.Y.

Ərizənin doldurulma tarixi

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 0 | 1 | 0 | 1 | 2 | 0 | 2 | 1 |

İmza _______________

DTA-01 Ərizə formasına əlavə edilməli təsdiqedici sənədlər xarici dildə olduğu halda "Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin inzibatçılığı Qaydalarının" 8.13-cü bəndinə müvafiq olaraq, onların Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi də təqdim edilməlidir. Ərizə müraciət edən şəxsin özü deyil, onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanaraq, təqdim edildiyi halda, həmin səlahiyyətli nümayəndənin müraciət edən şəxsi təmsil etmək səlahiyyətlərinə malik olması barədə etibarnamənin Azərbaycan Respublikasında notariat qaydasında təsdiq edilmiş surəti də ərizəyə əlavə edilməlidir.